# Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı




Tanınmış araşdırmaçı yazar Xaqani İsmayılın "Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı" kitabı bədnam qonşumuzun bütün yalanlarını ifşa edən, onların xislətini ortaya çıxaran və bir çox tarixi faktlara işıq tutan ən mükəmməl vəsaitlərdən biridir. Müəllifin böyük zəhməti hesabına 3 dildə - Azərbaycan türkcəsi, rus və ingiliscə çap olunan kitabın, xüsusən də bütün dünyanın diqqətinin Qarabağa yönəldiyi indiki ərəfədə, geniş yayılmasına ciddi ehtiyac duyuruq. Odur ki, AMEA Tarix İnstitutunun və İnsan Hüquqları İnstitutunun rəyi və tövsiyəsi ilə nəşr olunan bu kitabın "Hürriyyət" qəzetində hissə-hissə dərcinə qərar verdik. Buyurun, oxuyun.

## QARS VİLAYƏTİNDƏ ERMƏNİLƏRİN RUSLARA VƏ YUNANLARA QARŞI TÖRƏTDİYİ SOYQIRIMI (1919-1920)

*(Əvvəli ötən saylarımızda)*

**Daşnakların zorakılığından və özbaşınalığından danışarkən aşağıdakı hadisələri göstərmək olar:**

**1.** Əvvəllər Blaqodarnoye kəndindən 820 baş mal-qara, 210 at, 2/3 milyon manat pul təzminat almışdılar; kənd bir aya yaxın bir rota (bölük -X.İ.) əsgəri yedizdirmişdi, indi isə 500 pud yağ verməlidir. Bir neçə adam öldürülmüş, hakimiyyət tərəfindən təqib olunanların çoxu qaçıb dağılmışdır.

**2.** Novosəlim kəndindən 20 at, 80 öküz, 17 pud yağ alınmış, bir rota əsgər bir ay kəndin hesabına dolanmışdır, 35 at arabası arabaçılarla birlikdə cəbhəyə, 5 at arabası isə duz daşımağa göndərilmişdir, 15 qadın zorlanmış və kəndxuda öldürülmüşdür.

**3.** Vladiqars kəndindən 18 at, 5 öküz və 30 qoyun alınmışdır.

**4.** Novopetrovka kəndində 22 at, 40-a qədər qaramal və davar oğurlanmış və zorla alınmışdır. Günün günortaçağı kəndin yaxınlığında 4 at və furqon götürülmüş, 4 kişi öldürülmüş, bir qadın və onun 10 yaşlı qızı zorlandıqdan sonra döşləri və cinsi orqanları kəsilmişdir. Kəndin nümayəndələri cinayətkarların adlarını göstərməklə qubernator Karqanyansa şikayət etdikdə isə şallaqla döyülmüşlər.

Başqa kəndlərdə də vəziyyət belədir. Bütün bu qarətçiliyin və təzminatların dözülməzliyi bir də ondadır ki, rus əhalisi buralara yaxınlarda qayıtmışdır, son dərəcə müflisləşmişdir və özünü güclə dolandırır. Məsələn, Novosəlim kəndində cəmi 100 at var idi, onlardan 20-ni zorla aldılar, 35-ni cəbhə üçün, 18-ni isə arabaya qoşmaq üçün götürdülər.

Açıq-aşkar qarətçilikdən əlavə, gecə oğurluğu və soyğunçuluğu var, onlardan qorunmaq mümkün deyil, belə ki, əhalidəki silah hakimiyyət tərəfindən yığılmışdır və silah saxlamaq qəti qadağandır. Hakimiyyət isə əhalinin şikayətlərinə məhəl qoymur, üstəlik onları söyərək - "Siz bolşeviklərə belə lazımdır" - deyir.



Böyük Ermənistan bax belə yaradılır, Qarsın divarları proletariatın qanına və göz yaşlarına bulaşmışdır. 205 min müsəlmandan sərhədyanı zolaqda 50 mini qalmışdır, yunanlar tamamilə çıxıb getmişlər; ruslar qalmışlar, onlar da nəzərlərini Şimala dikmişlər. Bütün əhali bizdən xahiş edib ki, ən qısa müddət ərzində köçmək imkanlarını aydınlaşdıraq, o vaxta qədər isə artıq dərəcədə xahiş edirlər ki, Qars vilayəti əhalisinin həyatını daşnakların zorakılığından qorumaq üçün Sizdən asılı olan bütün tədbirləri görəsiniz.

Bu məqsədlə Sizdən habelə xahiş edirik ki, tezliklə Şimali Qafqaza getməkdə bizə kömək göstərəsiniz.

Qars vilayəti Rus Milli Şurasının üzvü Nümayəndə-müvəkkil

9 iyun 1920-ci il.

* * *

**Qeydlər:**

* Qars vilayəti əhalisinin ümumi sayından göründüyü kimi, yerli ermənilər 20 min idi.

** Təhrifə yol verməmək üçün yer adlarının yazılışı arxiv sənədində olduğu kimi saxlanmışdır.

*** Çox güman ki, 1920-ci il mayın 7-də RSFSR ilə Gürcüstan arasında bağlanmış sülh müqaviləsi nəzərdə tutulur.

**** Qeyd edək ki, bu unikal arxiv sənədi haqda ilk bilgini tarix elmləri namizədi Vaqif Ağayev vermişdir. O, sənədin məzmununu iki dildə dərc etdirərkən ruscasını "9 iyul 1920-ci il" tarixi ilə təqdim etsə də, azərbaycancasının sonunda və ümumilikdə sənədə şərh verərkən sənədin yazılma tarixini səhvən "9 iyun 1920-ci il" olaraq göstərmişdir (9: s.58, s. 61) Biz isə bu sənədi arxivdən əldə edərək, müəyyənləşdirdik ki, göstərilmiş tarixlərdən "9 iyul 1920-ci il" doğrudur və sənəd əslindən götürülmüş fotosurətdən ibarətdir, əsli, çox böyük ehtimalla aidiyyatı üzrə Rusiya XİN-in fondlarında saxlanılır və əyanilik üçün sənədin fotosurətini ilk dəfə öz kitabımızda yayınladıq (10: s.365-368). Bundan başqa, yuxarıdakı sənəddəki faciəli hadisələr, Vaqif Ağayevin təqdimatına görə, 1919-cu ildə baş vermiş kimi təqdim olunsa da (9: s.61), aşağıda diqqətə çatdıracağımız digər 3 arxiv sənədinin (S.M.Kirovun teleqramı və fotosurətini bölümün sonunda verdiyimiz Türkiyə arxivlərindən 2 bəlgə) məzmunu təsdiq edir ki, həmin müdhiş hadisələr 1919-cu ildə başlasa da ən azı 1920-ci ilin ortalarınadək davam etmişdir...

* * *

İndi isə Qars vilayəti Rus Milli Şurası üzvünün yuxarıda təqdim etdiyimiz məlumatında yunanlarla bağlı faciəli durumu təsdiq edən başqa tarixi faktlara diqqət yetirək:

"Mustafa Kamal Paşanın 9-cu Ordu birlikləri müfəttişi təyin olunma hazırlıqlarının yürüdüldüyü mayın ilk həftəsində, Baş Qərargah rəhbərliyi, məmləkətin ümumi vəziyyəti haqda göndərdiyi bir qısa bilgi ilə korpusları məlumatlandırırdı:

"Elviye-i Selase (Batum, Qars , Ərdahan) İslam Şurası ingilislər tərəfindən dağıdılmışdır.

Qarsa Rus yanlısı bir erməni Vali atanmış (təyin olunmuş) və bir erməni birliyi gəlmişdir.

Trabzona rum köçmənləri (yunan qaçqınları - X.İ.) gəlməyə başlamışdır...".

Türkiyə arxivlərində saxlanan bu rəsmi məlumata və yuxarıda qeyd olunan hadisələrə əsaslanaraq deyə bilərik ki, 1919-cu il mayın ilk həftəsindən Trabzona gəlməyə başlayan bu yunan qaçqınları məhz Qars bölgəsinin (Cənubi-Qərbi Qafqazın) 13 aprel 1919-cu il tarixində ingilislərin işğalı ilə yaradılmış Erməni hökumətinin tabeçiliyində olan Ərdahanın Göl nahiyəsinin yunan kəndlərinin əhalisindən bir qismi idi. Onlar Rus Milli Şurasının yuxarıda təqdim etdiyimiz müraciətində açıqlanan ermənilərin törətdiyi kütləvi hərbi cinayətlərə (milli qırğınlara və "etnik təmizləmə"yə) məruz qalmış xristianlardan idilər.

Heç təsadüfi deyil ki, növbəti bir qaynaqdakı bilgi də yuxarıdakı mülahizəmizin tamamilə yerində olduğunu təsdiq edir: "Burada yaşayan yunan əhali də ermənilərdən eyni zülmü görürdü". 1919-cu ilin 15 iyununda Qarsda bölgə yunanlarının 1-ci qurultayı keçirilərkən 45 minlik yunan əhali adından verilən bəyanat da buna əyani sübutdur...

* * *

Qars vilayətindəki rusların və başqa xalqların erməni hökuməti tərəfindən qətliam, talan və deportasiyaya məruz qalmaları Rusiya Dövlət Sosial-Siyasi Arxivində saxlanan bir sənəddə də öz əksini tapmışdır. Dövrümüzdə türk araşdırmaçısı M.Pərinçək tərəfindən üzə çıxarılan (12: s.6) bu sənəd S. M. Kirovun Rusiya xarici işlər naziri Çiçerinə 29 iyun 1920-ci il tarixində göndərdiyi 94 saylı teleqramdır. Həmin teleqramda erməni daşnaklarının hakimiyyətdə olduqları Qars vilayətində və Aleksandropolda (Gümrü -X.İ.) müsəlmanlara və ruslara qarşı qətliam və köçə zorlama (deportasiyaya məruz qoyma) fəaliyyətlərindən bəhs olunur: "Qars vilayətinin otuz min rus əhalisindən yalnız on beş mini qalıb, qalanları canını qurtarmaq üçün Türkiyə və ya Rusiya qaçıb, ya da (erməni hökuməti tərəfindən) öldürülüb...". Sənəddə həmçinin Tuxurtsk bölgəsindəki 15 müsəlman kəndinin də ermənilər tərəfindən qılıncdan keçirildiyi ifadə olunur...

Qarsda Erməni hökumətinin fəaliyyəti dönəmində müsəlmanlara və xristianlara qarşı soyqırımı və köçə zorlama fəaliyyətlərini sübut edəcək növbəti arxiv sənədlərini isə Türkiyə arxivlərindən əldə etdiyimiz bəlgələri tədqiq edərkən bulduq. Bu sənədlərdən biri ermənilərin Qars və civarındakı müsəlman və rus (malakan) kəndlərinə ermənilərin hücumu (14: s.374), digəri isə yenə də həmin vilayətdəki Novoselim rus kəndi və civarındakı müsəlman kəndləri əhalisinin ermənilər tərəfindən silahlı təcavüzə, talanlara uğradılması (15: s.377-378) haqqındadır. Bu sənədlərdən biri - 25.05.1920-ci il tarixli bəlgədə top və makinalı tüfənglərlə (pulemyot) silahlanmış erməni dəstəsinin Qarsın müsəlman və malakan (rus) kəndlərinə hücum çəkərək onları zülmə və talanlara məruz qoyduğu və müsəlmanlardan başqa, hətta malakan kəndlərinin də sərhəddəki Türk komandanlığına müraciət edərək yardım istədikləri bidirilir. İkincisi - 9.06.1920-ci il tarixli bəlgədə isə ermənilər tərəfindən Novoselim rus kəndi və onun ətrafında yerləşən Karaçayır, Iğdır, Kırkpınar və Cavlah müsəlman kəndlərinin yağmalanaraq 10 nəfərin öldürüldüyü, Yedikilise və Asbuğa sakinlərinin də kütləvi qırğınlara məruz qaldığı ifadə olunur.

Başqa sözlə, yuxarıda nəzərə çatdırdığımız 4 arxiv sənədindəki faktlar bir-biri ilə səsləşərək, Qars Vilayətində 1919-1920-ci illərdə mövcud olmuş Erməni hakimiyyətinin rəsmi hərbi birləşmələri tərəfindən orada yaşayan müsəlmanlardan başqa, xristianların (rus və yunanların) da, bugünkü beynəlxalq hüquq meyarları ilə desək, soyqırıma, etnik "təmizləməyə" məruz qaldıqlarını təsdiq edir.

Qeyd: Hərçənd yuxarıda bəhs olunan soyqırımı və başqa vəhşilik aktları [həmçinin Türkiyə arxivlərində bulunan digər dəlillər - ruslara qarşı aşağılayıcı silahlı basqınlarla həyata keçirilən talanlar] erməni millətçilərini rusların gözündən salmışdı, ancaq onlar yarım ilə kursu 180 dərəcə dəyişərək, üzlərini Rusiyaya tutub Türkiyənin digər vilayətlərini işğal etməklə erməni dövlətinə ("Qərbi Ermənistan") verilməsində kömək istədilər. Onlar bu təxribata hətta Rusiya xarici işlər naziri Çiçerini də qoşmağa müvəffəq oldular, belə ki o da öz növbəsində Türkiyəyə Rusiya dövləti adından müvafiq nota göndərdi. Bu qeyri-adi hadisələr haqda Orconikidzenin teleqramı və Kremlin reaksiyası ilə oxucuları tanış edək:

Q.K.Orconikidzenin Kremlə göndərdiyi teleqram və onun üzərində İ.V.Stalinin əlyazması ilə qeydi

«Van, Muş və Bitlisi Ermənistanın xeyrinə təmizləmək - küt və təxribatçı imperialist tələbdir».

Bakıdan göndərilmişdir: 9/2/1921

Qəbul tarixi: 11/2/1921

Yoldaş Leninə

Moskva, Kreml yoldaş Çiçerinə, Leninə,Trotskiyə, Stalinə

Şifr: yoldaş Stalinin

Stalinin qeydi:

«Yol. Lenin! Mən yalnız dünən bildim ki, Çiçerin türklərə nə vaxtsa Van, Muş və Bitlisi (türklərin sayca çox üstün olduğu vilayətlər) Ermənistanın xeyrinə təmizləmək kimi səfeh (və təxribatçı) tələblə nota göndərib. Bu erməni imperialist tələbi bizim tələbimiz ola bilməz. Millətçi əhval-ruhiyyəli ermənilərin diqtəsi ilə türklərə nota göndərməyi Çiçerinə qadağan etmək lazımdır.

12/II [1921] Stalin».

Bölgədə hadisələrin sonrakı gedişatı göstərir ki, o dönəmdə Rusiya rəhbərliyi qaniçən erməni riyakarların imperialist tələblərinə təcavüzkar dəstəyi kəsmək məcburiyyətində qalıb...

*(Ardı var)*